*Xətai rayonu*

# Təhsil işçiləri peşə bayramlarını qeyd etdilər







**Ölkəmizin sosial-iqtisadi inkişafı sahəsində qazanılan uğurlar, beynəlxalq aləmdə nüfuzunun gündən-günə artması, dünyada ən sürətli inkişaf edən dövlət kimi tanınması, regionlarımızın öz simasını tanınmaz dərəcədə dəyişməsi, elm, təhsil, səhiyyə, mədəniyyət, idman sahəsində əldə olunan nailiyyətlər hər kəsdə qürur hissi oyadır.**

Dövlət başçısının diqqəti, qayğısı və yaxından dəstəyi ilə son illərdə Azərbaycanın təhsil sistemində də çox ciddi islahatlar həyata keçirilir. Bu dövrdə Prezidentin sərəncamına əsasən təhsil sahəsində 20-dək irimiqyaslı Dövlət Proqramı təsdiq olunmuş və icra edilmiş, bir neçə Dövlət Proqramı isə icra edilməkdədir. Həmin proqramlara uyğun olaraq respublikada minlərlə məktəb binası tikilib istifadəyə verilmiş, yüzlərlə məktəb binası təmir olunmuşdur.

Ölkədə fəal milli maarifçilik xətti yeridilir, Azərbaycan təhsili dünya təhsil sisteminə inteqrasiya olunur, beynəlxalq təhsil sistemində mövcud olan mütərəqqi prinsiplər, qaydalar və yanaşmalar respublikamızda tətbiq edilir. Tədris prosesində yüksək biliklərə yiyələnmək, vətənpərvərlik və milli maraqlara sədaqət başlıca meyarlar sayılır.

Bu və digər fikirlər Xətai Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə 5 oktyabr— Beynəlxalq Müəllimlər Gününə həsr olunmuş tədbirdə səsləndirilmiş, milli təhsilimizin inkişafı istiqamətində dövlət səviyyəsində görülən işlərdən danışılmışdır.

Bayram tədbirini açan **rayon icra hakimiyyəti başçısının müavini Lalə Abdıyeva** təhsil işçilərini peşə bayramları münasibətilə təbrik edərək dedi ki, Beynəlxalq Müəllimlər Günü ilk dəfə 1996-cı il oktyabrın 5-də YUNESKO-nun qərarı ilə keçirilmişdir və bu gün 100-dən artıq ölkədə müəllimlərin peşə bayramı günü kimi qeyd edilir. Bu gün rayonun 37 orta ümumtəhsil məktəbində 4290, 47 körpələr evi-uşaq bağçasında isə 752 nəfər müəllim çalışır. Əvvəlki illərdə olduğu kimi, 2015-ci il də rayonun məktəbləri üçün uğurlu olub. Belə ki, 2014-2015-ci tədris ilində Xətai rayonunda fəaliyyət göstərən 37 orta məktəbdə 40934 şagird təhsil almış, onlardan 2600 nəfəri XI sinifdə oxumuş və 2597 nəfəri buraxılış imtahanlarını müvəffəqiyyətlə verərək attestat almışdır. Məzunlarımızın 2367 nəfəri ali məktəblərə qəbul üçün sənəd vermiş və 1576 nəfəri müvəffəq nəticə göstərərək ali məktəblərə qəbul olmuşdur. Ali məktəblərə qəbul olanların 227 nəfəri 500-600, 85 nəfəri 600-650, 40 nəfəri 650-700 bala qədər toplamışdır. Xətai rayonu üzrə ali məktəblərə qəbul 66,58 faiz olmuşdur.

650 baldan yuxarı bal toplamış 40 nəfər məzun rayonun 19 məktəbinin yetirmələridir. 2014-2015-ci tədris ilində 5 məzun məktəbi qızıl medalla bitirmiş, yüksək nəticələr əldə edərək tələbə adını qazanmışdır. Respublika üzrə Prezident təqaüdünə layiq görülən 102 nəfərdən 6-sı Xətai rayon məzunudur. Rayonun 89 nəfər məzunu isə dünyanın müxtəlif universitetlərinə qəbul olunub.

Sonra **rayon icra hakimiyyətinin başçısı Razim Məmmədova** söz verildi. O, milli təhsilimizin inkişafına göstərilən dövlət qayğısından danışaraq dedi: "Ulu öndər Heydər Əliyev tərəfindən təhsilə göstərilən diqqət və qayğı bu gün ölkə başçısı cənab İlham Əliyev və respublikanın birinci xanımı Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş 2011-2013-cü və 2014-2016-cı illərdə Bakı və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı Dövlət proqramlarına uyğun olaraq rayonumuzda yerləşən 37 orta ümumtəhsil məktəbindən 31-i əsaslı təmir olunmuş, 55 və 194 saylı məktəblər sökülərək yerlərində yeni, müasir standartlara cavab verən məktəb binaları inşa edilmişdir. 63 saylı tam orta məktəbin əlavə korpusu və 171 saylı orta məktəbin yeməkxana və akt zalı da Dövlət Proqramına uyğun olaraq tikilib istifadəyə verilmişdir. 2014-2016-cı illər Dövlət Proqramına uyğun olaraq daha iki məktəbin əsaslı təmiri nəzərdə tutulur. Sevindirici haldır ki, təmir edilmiş 138, 249, 56 və 264 saylı tam orta məktəblərin açılışında cənab Prezident İlham Əliyev də iştirak etmişdir ki, bu da dövlət qayğısının təzahürüdür. Təbii ki, bütün bunlar təhsil işçilərinin daha yaxşı işləməsinə imkan verir, onların uğurları üçün zəmin yaradır. Mən müqəddəs peşə sahiblərini peşə bayramları münasibətilə təbrik edirəm".

Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının sədri Hüseynbala Mirələmov, 287 saylı "Zəkalar" liseyinin direktoru Aygün Əhmədli, 138 saylı orta məktəbin direktoru Mirfaiq Mirheydərli Azərbaycan təhsilinə göstərdiyi diqqət və qayğıya görə dövlət başçısına, rayon icra hakimiyyətinin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.

Sonda təhsildə qazandıqları uğurlara görə rayonun 287 saylı "Zəkalar" liseyi, 147 saylı texniki-humanitar liseyi, Heydər Əliyev adına lisey, humanitar təmayüllü məktəb-lisey, 261 saylı məktəb-liseyə, 17 saylı tam orta məktəbə, 264 saylı məktəb-lisey, 48 saylı tam orta məktəb, 263 saylı tam orta məktəbə, 245 saylı tam orta məktəbə mükafatlar təqdim olundu. Ali məktəbə qəbulda yüksək nəticə göstərən 40 nəfər tələbə, respublika üzrə hərbi-vətənpərvərlik yarışlarında I yeri tutan 138 saylı məktəbin "Şahinlər" komandası da rayon icra hakimiyyəti tərəfindən təltif olunanlar arasında idi.

Tədbir bədii hissə ilə başa çatdı.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**